I.S. LAW FIRM, PLLC
ATTORNEYS AT LAW

# HAQLARINIZI BİLİN: ABŞ-DA MİQRANTLAR ÜÇÜN BƏLƏDƏÇİ

ABŞ Konstitusiyası hər kəsi, o cümlədən qeyri-qanuni miqrantları da, məyyən haqlarla qoruyur. Aşağıda evdə, ictimai yerlərdə və iş yerlərində rast gəlinə biləcəyiniz hallara dair haqlarınız izah olunub. Bu haqları bilmək özünüzü qorumaq və lazımi qaydada cavab vermək üçün sizə kömək edəcək.

## Ümumi Haqlar:

1) **Susmaq haqqınız var:**
   - Siz miqrasiya zabitləri ilə danışmaq və ya onlara suallara cavab vermək məcburiyyətində deyilsiniz.
   - Eğər sizdən doğum yeriniz və ya ABŞ-a necə daxil olduğunuz sorğu edilərsə, cavab verməmək və ya susmaq haqqınızdan istifadə edə bilərsiniz.
   - Lazım olduqda, "Mən susmaq haqqımdan istifadə edirəm" deyə bilərsiniz.
   - Heç vaxt saxta sənədlər təqdim etməyin və ya yalnış məlumat verməyin.

2) **Vəkil tələb etmə haqqınız var:**
   - Əgər siz həbs olunmusunuzsa, dərhal vəkil tələb etmək haqqınıza maliksiniz.
   - Əgər sizin bir vəkiliniz varsa, bu haqda zabitlərə məlumat verin və imzalanmış "Form G-28" təqdim edin.
   - Əgər sizin vəkiliniz yoxdursa, pro bono vəkillərin siyahısını istəyin və ya konsulluğunuzla əlaqə saxlayın.

3930 Walnut Street, Suite 200, Fairfax, Virginia 22030 • Tel: (703) 527-1779 • Fax: (703) 778-0369 • www.islawfirm.com

## Evdə Miqrasiya Zabitləri ilə Qarşılaşsanız:

**1) Qapını açmayın**:

- Miqrasiya zabitləri sizin evinizə daxil olmaq üçün hakimin imzaladığı etibarlı axtarış icazəsində malik olmalıdırlar.
- ICE deportasiya orderi onların sizin razılığınız olmadan evinizə daxil olmasına hüquqi əsas vermir.
- Əgər onlar axtarış orderinə malik olduqlarını iddia edirlərsə, orderi qapının altından keçirməyi və ya pəncərədən göstərməyi xahiş edin.
- Orderdə sizin düzgün adınız, ünvanınız və hakimin imzası olduğunu təsdiq edin.




**2) Qapının arxasından danışa bilərsiniz.**

- Zabitlərlə danışmaq üçün qapını açmaq məcburiyyətində deyilsiniz.
- Əgər çölə çıxmağı seçsəniz, qapını arxanızca bağlayın.

**3) Sənədlərinizi və məlumatlarınızı qoruyun.**

- Ölkənizi təyin edən şəxsiyyət sənədlərini göstərməkdən imtina etmək hüququnuz var.
- Heç vaxt saxta sənədlər təqdim etməyin və ya yanlış məlumat verməyin.

## İctimai Yerdə Miqrasiya Zabitləri ilə Qarşılaşsanız:

**1) Sakit olun və susun.**

- Siz azad olub-olmadığınızı sorğu edə bilərsiniz. Əgər "bəli" cavabı alırsınızsa, sakitcə uzaqlaşın.
- "Xeyr" cavabı verilərsə, susmaq haqqınızdan istifadə edin.

**2) Sizi və ya sizin əşyalırınızı axtarmaq icazəsini rədd edə bilərsiniz.**

- Əgər həbs olunmamısınızsa, özünüzün və ya əşyalarınızın axtarışına razılıq verməkdən imtina edə bilərsiniz.
- Polis əməkdaşları üzərinizdə silah olduğunu düşünərsə, “yoxlama” məqsədilə üst-baş yoxlaması apara bilərlər..




**3) Sənədləri imzalamamaq haqqınız var:**

- Sizdən immiqrasiya statusunuzu və ya hansı ölkədən olduğunuzu göstərən sənədləri təqdim etmək tələb olunarsa, bunu etməmək hüququnuz var.

**<u>İş Yerində Miqrasiya Zabitləri ilə Qarşılaşsanız:</u>**

**1)Sakit olun və panik etməyin.**




- Qaçmayın. Əgər ayrılmaq lazımdırsa, sakitcə və təmkinli olun.
- Əgər sizi saxlayırlarsa, "mən azadamı?" sualını verin. "Bəli" cavabı alırsınızsa, uzaqlaşın; "Xeyr" cavabı verilərsə, susun və vəkil tələb edin.

**2)Miqrasiya zabitləri sizin iş yerinizin ictimai olmayan hissələrinə daxil olmaq üçün etibarlı axtarış icazəsinə malik olmalıdırlar.**

- Sənədləri imzalamadan öncə vəkilinizlə məsləhətləşin.

**3) Sualalara cavab vermək məcburiyyətində deyilsiniz.**

- Doğulduğunuz yer və ya immiqrasiya statusunuzla bağlı məlumat verməkdən imtina edə bilərsiniz.

**4) Sənədlərinizi və hüquqlarınızı qoruyun.**

- Mənsub olduğunuz ölkəni göstərən şəxsiyyət sənədlərini təqdim etməkdən imtina edə bilərsiniz.
- Hüquqi məsləhət almadan heç bir sənədə imza atmayın.

Daha çox məlumat üçün və ya miqrasiya yardımına yararlı olub-olmadığınızı öyrənmək üçün bizimlə əlaqə saxlayın:

I.S. LAW FIRM, PLLC
Telefon/WhatsApp: +1-703-527-1779
Email: law@islawfirm.com
Veb sayt: https://www.islawfirm.com

3930 Walnut Street, Suite 200, Fairfax, Virginia 22030